**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MDB MƏKANINDA GEOSİYASİ PROSESLƏR: AZƏRBAYCAN RESPUBLİKASININ MARAQLARI VƏ MÖVQEYİ

| | |
|---|---|
| İxtisas: | 5901.01 – Beynəlxalq münasibətlər |
| Elm sahəsi: | Siyasi elmlər |
| İddiaçı: | **Ayşən Əlif qızı Aslan-Məmmədli** |

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2026**

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Diplomatiya və müasir inteqrasiya prosesləri" kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | tarix elmləri doktoru, professor<br>**İsmayıl Məhərrəm oğlu Musa** |
| Rəsmi opponentlər: | siyasi elmlər doktoru, professor<br>**Hikmət Baba oğlu Məmmədov** |
| | siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent<br>**Sənan Səməndər oğlu Həsənov** |
| | siyasi elmlər üzrə fəlsəfə doktoru<br>**Amid Şirxan oğlu Əliyev** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurası

| | | |
|---|---|---|
| Dissertasiya şurasının sədri: | _______________ | akademik<br>**Urxan Kazım oğlu Ələkbərov** |
| Dissertasiya şurasının elmi katibi: | _______________ | siyasi elmlər doktoru, professor<br>**Sevda Ağamirzə qızı Əliyeva** |
| Elmi seminarın sədri: | _______________ | siyasi elmlər doktoru, professor<br>**Elçin İldırım oğlu Əhmədov** |

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müasir beynəlxalq münasibətlər sisteminin transformasiyası və qlobal güc balansında baş verən dəyişikliklər fonunda postsovet məkanında cərəyan edən geosiyasi proseslərin tədqiqi xüsusi elmi və siyasi aktuallıq kəsb edir. SSRİ-nin süqutundan sonra yaranmış yeni geosiyasi reallıqlar, region dövlətləri arasında münasibətlərin yenidən formatlaşması, inteqrasiya və qütbləşmə meyllərinin paralel inkişafı, habelə böyük güclərin bu məkandakı maraq toqquşmaları onu dünya siyasətinin mühüm strateji məkanlarından birinə çevirmişdir. Bu baxımdan, Azərbaycan Respublikasının milli maraqlarının təmin edilməsi, regional və qlobal proseslərdə mövqeyinin müəyyənləşdirilməsi, eləcə də balanslaşdırılmış və çoxvektorlu xarici siyasət kursunun formalaşdırılması kontekstində MDB məkanındakı geosiyasi dinamikanın kompleks şəkildə araşdırılması zəruri elmi və praktik əhəmiyyətə malikdir.

Bu mövzunun (problemin) araşdırma zərurəti aşağıdakı elmi-nəzəri və siyasi-əməli dəlillərlə, müddəalarla əsaslandırıla bilər:

***Birincisi***, burada belə bir olduqca vacib məqam mütləq nəzərə alınmalıdır ki, XX əsrin sonlarında dünyanın nizamı yenidən pozuldu və köklü şəkildə dəyişdi. Bu, təbii və labüd tarixi prosesi isə SSRİ-nin və dünya sosializm sisteminin dağılması şərtləndirdi. Həmin qaçılmaz və taleyüklü prosesin çoxşaxəli geosiyasi nəticələri sırasında isə postsovet məkanının formalaşması öncül yerlərdən birini tutur.

Sovetlər İttifaqının süqutu və postsovet məkanının bərqərar olması ilə:

a) bir tərəfdən, çağdaş dünya siyasətində və beynəlxalq münasibətlərdə əsaslı dəyişikliklər baş verdi. Belə ki,

- sonu (bitməsi) barədə qəti elmi nəticəyə gəlinməsi mümkün olmayan "Soyuq müharibə" səngidi;
- xeyli səmərəli elmi mübahisələr obyekti (mövzusu) olan uzunsürən təkqütblü dünya düzəninə keçid yönəlik sistemli-strateji səylər yetərli, ciddi, əməli uğurlar qazanmadı;

b) digər tərəfdən və ən başlıcası da, postsovet məkanında-fikrimizcə, elmi cəhətdən araşdırılması çox zəruri sayılan-aşağıdakı

çoxyönlü, fərqli mahiyyətli, yekunlu geosiyasi proseslər yaşandı və hərbi qarşıdurmalar, diplomatik çəkişmələr "bolluğu" yarandı:

• "əsrin nəhəng geosiyasi fəlakət"i (SSRİ-nin çöküşü nəzərdə tutulur – Rusiya siyasi diskursunda yayılmış fikir) Rusiyaya əsla dərs olmadı. O, həm də və hətta ikinci belə bir fəlakətlə qarşılaşmaq (özünü dağılması) təhlükəsindən qurtuldu;

• yenidən tezliklə ənənəvi, tarixi "Vahid və Bölünməz Rusiya" geostrategiyasına – imperiya təfəkkürlü dövlətçiliyə üstünlük və rəvac verildi. (Bunları Rusiyanın ilk prezidentinin Qərbdə "Yeltsin doktrinası" kimi səciyyələndirən geosiyasi baxışları və hazırkı dövlət başçısı V.Putinin "yaxın xaric"ə, yəni postsovet məkanına dair siyasəti və əməli fəaliyyəti də yetərincə təsdiqləyir);

• Kremlin "yaxın xaric"ə qarşı təzyiq siyasəti, planları, konkret ilhaq aktları, iqtisadi (enerji məsələləri ilə) əlaqədar təzyiqləri və s. postsovet məkanında qütbləşmə proseslərinə güclü təkan oldu;

• Rusiya Federasiyasının (RF-in) "dirijorluğu" ilə postsovet aləmində:

a) öncə daha bir "törəmə" məkan – Qərbdə "ölü doğulan uşaq" sayılan – Müstəqil Dövlətlər Birliyi (MDB; Baltikyanı keçmiş sovet respublikalarsız) yaradıldı;

b) sonralar isə MDB müstəvisində hərbi-iqtisadi səciyyəli (üzvlərin sayı və digər cəhətlərdən fərqli formatlarda) növbəti "törəmə məkan"lar, yəni "rus NATO"su da adlandırılan və anti NATO bloku kimi dəyərləndirilən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) quruldu;

c) Avrasiya İqtisadi İttifaqı (Aİİ) və Gömrük İttifaqı (Gİ) ərsəyə gətirildi;

• bir növ, bunlara cavab (etiraz) olaraq GUAM (Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova) – Demokratiya və İqtisadi İnkişaf Təşkilatı – təşkil olundu. (1999-2002-ci illərdə Özbəkistan da üzv olduğu bu təşkilata MDB məkanında daha bir güc mərkəzi, Rusiyaya qarşı plasdarm və s. olaraq yanaşılırdı);

• MDB məkanında enerji ehtiyatlarına sahiblik hüququ, onların emalı və nəqli məsələləri, Xəzər dənizinin statusu və s. ilə əlaqədar "neft-qaz diplomatiyası" müstəvisində qısamüddətli (Azərbaycan və

Qazaxıstanın Rusiya ilə) və uzunçəkən (Türkmənistanla Azərbaycan arasında) fikir ayrılıqları ortaya çıxdı və çəkişmələr oldu;

• Rusiya, bir yandan, Azərbaycan, Gürcüstan, Moldova, Ukrayna və Mərkəzi Asiya respublikalarının ərazi bütövlüklərinə etnosiyasi münaqişələr törətməklə və digər yollarla ciddi problemlər yaratdı. Digər tərəfdən də, o öz daxilində yeritdiyi yarıtmaz etnosiyasət üzündən separatçılıq hərəkətləri ilə üzləşdi.

Rusiyanın yaranmasında iştirak etdiyi etnosiyasi münaqişələri və onların nəticələrini belə sıralamaq olar. 1) Rusiya: a) 2008-ci ildə Gürcüstanla "Beşgünlük müharibə"də onu əzərək "sakitləşdirdi" və Abxaziya ilə Cənubi Osetiyanı "müstəqilliyə qovuşdurdu"; b) Ukrayna ilə – hələ də davam etməkdə olan – hərbi, siyasi, diplomatik qarşıdurmada öz "tarixi" ərazisi saydığı Krımın ilhaqını reallaşdırdı və Donetsk, Luqanskı rəsmi Kiyevin "əsarətindən qurtardı"; 2) Azərbaycan 44 günlük Vətən (İkinci Qarabağ) müharibəsində Ermənistan üzərində tarixi zəfər qazandı və işğal olunan əzəli torpaqlarımızı geri qaytardı. Kreml Çeçenistanla qarşıdurmanı: hərbi (çoxmərhələli müharibələrlə) və Tatarıstan, Başqırdıstan, habelə digər muxtar qurumlarla isə dinc ("konstitusion") yollarla aradan qaldırdı;

• "Qafqaz Evi (Birliyi)" çağırışlarının və onun gerçəkləşdirilməsindən ötrü B.Yeltsinin "Qafqaz dördlüyü" formulu-formatı (Azərbaycan, Gürcüstan, Ermənistan+Rusiya) ideyası ortaya atıldı;

• Güney Qafqazda maraq və nüfuz dairələri uğrundakı rəqabətin iştirakçılarının sayı postsovet məkan xaric böyük güclərin (ABŞ, Avropa İttifaqı, Çin), regional aktorların (Türkiyə, İran, İsrail) və MDB-yə üzv bəzi dövlətlərin (Ukrayna və digər) hesabına xeyli artdı. Bu hal da Qafqazın cənubunda yeni, çoxşaxəli reallıqların yaranmasına diqqətçəkici təsir göstərdi.

***İkincisi,*** dissertasiya tədqiqatının aktuallığını və araşdırılan mövzunun önəmini elmi dövriyyəyə (təhlil dairəsinə) cəlb etdiyimiz aşağıdakı mühüm dəyərləndirmələrlə də vurğulamaq mümkündür:

• MDB məkanındakı geosiyasi proseslərlə Azərbaycan Respublikasının (AR-in) hərtərəfli tərəqqisi, beynəlxalq vəziyyəti və xarici siyasəti, milli-dövlət təhlükəsizliyi problemləri və inkişaf

perspektivləri kimi köklü strateji məsələlər arasında üzvi əlaqənin, sıx bağlantının mövcudluğu labüddür, danılmazdır;

• məlum məkandaxili çoxşaxəli proseslərdə və dövlətlərarası əlaqələrdə "Rusiya amili"nin şəksiz üstün, öncül mövqelərə sahibliyi inkarolunmazdır və bu hal, məqam RF-AR münasibətləri üçün də səciyyəvidir, keçərlidir. Bu kontekstdə Ümummilli lider H.Əliyevin belə bir baxışı diqqətçəkəndir: "Rusiya bizim üçün təkcə yaxın qonşu deyil, o həm də elə bir ölkədir ki, biz iki əsrdən yuxarıdır ki, onun tərkibindəyik". Prezident İ.Əliyevin nəzər-nöqtəsinə görə də, Rusiya böyük dövlətlər arasında yeganə ölkədir ki, Azərbaycanla birbaşa sərhədlərə malikdir və region ölkəsi hesab edilir .

• AR-in MDB daxilində proseslərdə iştirakı və onlara təsir imkanları da mütləq nəzərə alınmalı məsələdir. Bununla bağlı isə ölkəmizin əlverişli coğrafi mövqeyindən və təbii sərvətlərlə (öncəliklə, karbohidrogen ehtiyatları ilə) zənginliyindən səmərəli faydalanma təcrübəsi önə çəkiləsidir. Burada, bizcə, ilk növbədə, iki önəmli müvəffəqiyyət (nəticə) vurğulanmalıdır: 1) Nəinki MDB, hətta Avrasiya məkanlarında nəqliyyat-kommunikasiya sistemlərinin başlıca qovşaqlarından birinə çevrilmə. 2) Neft və qazın nəqlində uğurlu şaxələndirmə.

• Rusiya ilə Ermənistan MDB-də Azərbaycanı diplomatik təcrid durumuna salmağa yönəlik səylərinin zərərsizləşdirilməsi ilə bağlı yeridilən siyasətin bəzi müsbət nəticələri diqqətçəkicidir. Bu cəhətdən respublikamızın – Birlikdə söz (nüfuz) sahibləri sayılan-Qazaxıstan, Belarus və b. sıx əməkdaşlığı özünü doğrultmuş diplomatik xətt sayıla bilər;

• Azərbaycanın 44 günlük İkinci Qarabağ və ya Vətən müharibəsində işğalçı Ermənistan ordusu üzərindəki tarixi qələbəsinin çoxşaxəli nəticələrinin MDB məkanında,ələlxüsus da, Cənubi Qafqazda yaratdığı yeni hərbi-siyasi reallıqların elmi cəhətdən dəyərləndirilməsi olduqca önəmlidir, vacibdir.

Mövzunun elmi cəhətdən araşdırılma səviyyəsi ilə bağlı iki məqamı vurğulamağa ehtiyac vardır:

1. MDB məkanındakı geosiyasi proseslərin AR-in maraqları və mövqeyi kontekstində əhatəli, çoxtərəfli şəkildə elmi tədqiqatı ilk dəfə olaraq bu dissertasiya işi vasitəsilə aparılmışdır.

2. Dissertasiyada araşdırılan elmi problemin – işin mövzusu ilə əlaqədar məsələlərin – bəzi məqamları Azərbaycanda və xarici dövlətlərdə aparılan tədqiqatlarda nəzərdən keçirilmişdir.

Postsovet məkanında münasibətlərin inkişafı, mürəkkəb və ziddiyyətli məsələlərin aydınlaşdırılaraq aradan qaldırılması, inteqrasiya və dezinteqrasiya proseslərinin nizamlanması, kollektiv təhlükəsizliyin təmin edilməsi, ümumilikdə bu nəhəng məkanın təhlükəsizliyinə hədə kimi keçmiş Ermənistan-Azərbaycan münaqişəsinin həll edilməsi, ölkəmizin ikitərəfli və çoxtərəfli əlaqələrinin üfiqi və şaquli istiqamətlərdə dərinləşməsi yalnız Azərbaycan diplomatiyasının məqsədyönlü fəaliyyəti nəticəsində normal məcraya düşməkdə və öz müsbət bəhrələrini verməkdədir. Kompleks şəkildə tədqiqat obyekti kimi seçilən problemi zaman-zaman aktual edən, qarşılıqlı əməkdaşlığı şərtləndirən məhz göstərilən amillərdir.

Azərbaycan tarixində yeni mərhələnin başlanğıcı olan Dövlət müstəqilliyinin bərpası haqqında Konstitusiya Aktının (1991) qəbulu respublikamızın qarşısında xarici siyasət sahəsində də bir sıra təxirəsalınmaz vəzifələr qoydu. Yaranmış yeni tarixi şəraitdə Azərbaycan Respublikasının (AR-in) xarici siyasətinin prioritet istiqamətləri arasında Müstəqil Dövlətlər Birliyi (MDB) və ya postsovet məkanı ölkələri, bu kontekstdə isə Rusiya ilə münasibətlər xüsusi yer tuturdu. Fikrimizcə, bu problemi aktuallaşdıran amillər aşağıdakı kimi qruplaşdırıla bilər:

- Azərbaycanın milli maraqları MDB məkanı dövlətləri və bu regionun qurumları ilə hərtərəfli və müxtəlif sahələri əhatə edən, qarşılıqlı faydaya əsaslanan çoxşaxəli əlaqələri zəruri edirdi və bu indi də belədir;
- Azərbaycanın postsovet məkanı ölkələrindən qonşuluqda olan Rusiya Ermənistan, Gürcüstan və İranla sərhədlərinin mövcudluğu ikitərəfli münasibətlərdəki problemləri aradan qaldırmaq üçün AR-in rəhbərliyinin çevik fəaliyyətini şərtləndirdi və belə bir zərurət hazırda mövcuddur;
- tədqiqatın postsovet məkanı dövlətlərinin hər biri ilə Azərbaycan arasında əlaqələrin ayrı-aylılıqda deyil, Azərbaycan Respublikasının milli maraqlarından çıxış edilməklə kompleks

şəkildə aparılması və Rusiya ilə münasibətlərin prioritet götürülməsi, çünki praktika Rusiyanın postsovet məkanında Baltikyanı dövlətlər istisna olmaqla qalan dövlətlərə münasibətdə üstün maraqlara və ciddi təsiretmə mexanizminə malik olduğunu konkret faktlarla göstərir;

- Postsovet məkanı dövlətlərinin demək olar ki, hamısının, xüsusilə Rusiyanın Cənubi Qafqaz geostrategiyasında müəyyən dəyişikliklərə baxmayaraq buraya maraq dairəsi kimi baxmaları;
- Azərbaycanın ərazisinin geosiyasi baxımdan mühüm mövqeyə malik olması, enerji ehtiyatları və təbii sərvətlərlə zənginliyi, Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsində Rusiyanın, Qazaxıstanın və Türkmənistanın birbaşa iştirakı;
- Xəzərin enerji ehtiyatları, neft və qaz ixrac kommunikasiya sistemləri ilə birbaşa bağlılığından ibarət mürəkkəb kompozisiyada Rusiya, İran, Türkiyə, İngiltərə, ABŞ və s. dövlətlərin iştirakı;
- Çəkilişində Rusiyanın maraqlı olmadığı neft və qaz ixrac boru kəmərlərinin, Böyük İpək yolunun və digər kommunikasiya sistemlərinin Azərbaycandan keçməsi;
- Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin 44 günlük Vətən müharibəsi nəticəsində respublikamızın ərazi bütövlüyünün və süverenliyinin təmin edilməsi ilə başa çatmasının Cənubi Qafqazda yeni geosiyasi durumun yaranmasını şərtləndirməsi və beynəlxalq əhəmiyyəti.

Göstərilən amillər həm regiondakı mövcud vəziyyət, həm də onun gələcəyi ilə sıx bağlı olduğu üçün Azərbaycan öz xarici siyasət strategiyasında bu amilləri nəzərə alaraq postsovet məkanı dövlətləri ilə siyasi, iqtisadi, sosial-mədəni, humanitar, ekoloji və s. sahələrdə əməkdaşlığın genişləndirilməsinə nail olmalıdır. Bu əməkdaşlığı hərbi quruculuqla bağlı konkret sahələrə də şamil etmək olar. Azərbayanın artıq arxada qoyduğu otuz ildən artıq müstəqillik illərinin təcrübəsini ümumiləşdirsək bu əməkdaşlığın nə qədər əhəmiyyətli olduğu aydın görünər. Digər tərəfdən, müxtəlif sahələri əhatə edən belə əməkdaşlıq Azərbaycanın beynəlxalq təcridlə yenidən üzləşməməsi, habelə respublikamızın ətrafında hər hansı formada koalisiyaların yaradılmasına imkan verməməyin qarant ola

bilər. Çünki əməkdaşlıq hələ münaqişələrin, ixtilafların və ziddiyətlərin olmaması demək deyil, ancaq göstərilən halların böhran səviyyəsinə keçilməsinə imkan verilməməsi deməkdir.

MDB məkanındakı geosiyasi proseslərin Qərb diplomatiyasının da diqqət mərkəzində olmasını nəzərə alaraq tədqiqat işində bir sıra xarici ölkələrdə aparılan elmi araşdırmaların nəticələrini özündə əks etdirən ədəbiyyatdan istifadə edilmişdir. Onlarda Rusiyanın postsovet məkanını özünə tabe etdirmək cəhdləri, bu məqsədlə də etnosiyasi münaqişələrdən faydalanması, RF-in təzyiqlərinə dözməkdən ötrü Qərbin yeni müstəqil dövlətlərə siyasi, hərbi və iqtisadi-maliyyə yardımlar göstərməsi, qlobal layihələr vasitəsi ilə bu ölkələrin Rusiyanın təsir dairəsindən çıxarılması kimi məsələlər araşdırılmışdır[1].

Ümumiyyətlə, mövzunun işlənmə dərəcəsi göstərir ki, post sovet məkanında geosiyasi proseslər və bu kontekstdə Azərbaycan Respublikasının mövqeyi həm yerli, həm də xarici tədqiqatçılar tərəfindən müxtəlif aspektlərdə tədqiq olunmuşdur. Azərbaycan alimlərindən C.Eyvazov, A.Abbasbəyli, H.Hüseynova, S.Qaraşova və başqalarının əsərlərində milli maraqlar, xarici siyasət strategiyası və regional təhlükəsizlik məsələləri geniş təhlil edilmişdir[2]. Xarici

---

[1] Armenia and Turkey normalise ties // BBC News [сайт]. URL: http://news. bbc.co.uk/2/hi/europe/8299712.stm (дата обращения: 21.12.2011 г.); Коджаман, О. Южный Кавказ в политике Турции и России в постсоветский период / О.Коджаман. – Москва: Русская панорама, – 2004. – 296 с.; Hamburg “The South Caucasus at the Crossroads, Caspian oil and Great Power Politics”; Myers, J.M. The Myth of the Caspian “Great game”: The Real Geopolitics of Energy” / J.M.Myers, R.A.Manning // – Survival (journal), – 1998–1999. Vol. 40, No. 4, – pp. 112–129.; Starr, S.F. Resolving Karabakh: Strategic Options for the US Government. Central Asia-Caucasus Institute / S.F.Starr. – Washington, D. C. – 2004.; Graham, B. Rumsfeld Discuss Tighter Military Ties with Azebaijan / B.Graham. – 2003.; Iskit, T. Turkey: Anew actor in the Field of Energy / T.Iskit. – 1996.; Brzezinski, Z. The Grand Chessboard: American Primacy and its Geostrategic Imperatives / Z.Brzezinski. – 1997. Halliday, F. Condemned to React, Unable to Influence: Iran and Transcaucasia / F.Halliday. – 1996.

[2] Эйвазов, Дж. Безопасность Кавказа и стабильность развития Азербайджанской Республики / Дж.Эйвазов. – Баку: Нурлан, – 2004. – 352 с; Аббасбейли, А. Гейдар Алиев и мировая политика / А.Аббасбейли. – Баку: Азернешр, – 1997. – 328 с.; Hüseynova, H. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində /

tədqiqatçılardan Z.Bzejinski, S.Star, o cümlədən Rusiya tədqiqatçıları A.Duqin, S.Markedonov və digərləri tərəfindən post sovet məkanında geosiyasi transformasiyalar və böyük güclərin siyasəti müxtəlif aspektlərdən araşdırılmışdır[3]. Bu tədqiqatlar mövzunun nəzəri-metodoloji əsaslarının formalaşmasında mühüm rol oynamışdır.

Dissertasiya işində Azərbaycan Respublikası XİN-in cari arxivindəki sənəd və materiallardan geniş istifadə edilmişdir. Bu materialların əksəriyyəti elmi dövriyyəyə tərəfimizdən daxil edilir. Onlar, əsasən, müxtəlif səciyyəli razılaşma, saziş və müqavilələrdən ibarətdir.

MDB məkanı ölkələri arasında imzalanmış sənədlərin sistemli şəkildə nəşrinə XX əsrin sonlarında başlanılmışdır. Respublikamızın Xarici İşlər Nazirliyi ilə Rusiya Federasiyasının Azərbaycandakı səfirliyinin birgə səyləri sayəsində dövlətlərimiz arasında 1992-2002-ci illərdə imzalanmış siyasi, iqtisadi, ticarət və humanitar səciyyəli sənədlərin kiçik bir qismini əhatə edən toplu iki dildə nəşr edilmişdir[4].

Tədqiqat işində çoxsaylı dövri nəşrlərin, Azərbaycan və Rusiya dövlətləri başçılarının qarşılıqlı səfərlərinin materiallarından faydalanılmışdır. Habelə statistik məlumatlardan və AR-in xarici siyasət xəttini əks etdirən sənədlərdən geniş istifadə olunmuşdur.

**Tədqiqatın obyekti və predmeti.** MDB məkanındakı geosiyasi proseslərin mahiyyəti, dinamikası, beynəlxalq

---

H.Hüseynova. – Bakı: Hərbi nəşriyyat, – 1998. – 280 s.; Qaraşova, S.A. ABŞ-Rusiya: postsovet məkanı uğrunda mübarizə / S.Qaraşova. – Bakı: Səda, – 2018. – 408 s.

[3] Бжезинский, З. Выбор. Мировое господство, или глобальное лидерство /З.Бжезинский. – Москва: Международные отношения, – 2004; Starr, S.F. Resolving Karabakh: Strategic Options for the US Government. Central Asia-Caucasus Institute / S.F.Starr. – Washington, D.C. – 2004. Дугин, А. Основы геополитики. Геополитическое будушея России. Мыслить Пронстранством / А.Дугин. – Москва: АРКТОГЭЯ – центр, – 2000. – 928 с.; Маркедонов, С. Постсоветское пространство: прощание с дефиницией? – 30 лет. Эволюция постсоветского пространства: прошлое, настоящее, будущее: хрестоматия /С.Маркедонов. – Москва: НП РСМД, – 2017. – 384 с.

[4] Azərbaycan-Rusiya. Sənədlər toplusu. (Azərbaycan və rus dillərində) / – Bakı, – 2002. – 468 s.

münasibətlərə – dünya siyasətinə təsiri və perspektivləri araşdırmanın obyektini təşkil edir.

Dissertasiya tədqiqatının predmeti isə Azərbaycan Respublikasının MDB daxili geosiyasi proseslərlə bağlı maraqları və mövqeyinin araşdırılaraq ümumiləşdirilməsindən ibarətdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Azərbaycan Respublikasının MDB məkanında gedən geosiyasi proseslərlə əlaqədar maraqlarının və mövqeyinin tədqiqi dissertasiyanın başlıca məqsədi olaraq müəyyənləşdirilmişdir.

Bu məqsədə uyğun olaraq tədqiqatın qarşısında aşağıdakı vəzifələr qoyulmuşdur:

- postsovet-MDB geosiyasi məkanlarının formalaşmasını şərtləndirən amillərin səciyyələndirilməsi;
- MDB daxilidəki geosiyasi proseslərin mahiyyətinin, xüsusiyyətlərinin və aparıcı yönlərinin müəyyənləşdirilməsi;
- məlum məkanda yaşanan bir-birinə zidd iki prosesin – inteqrasiya ilə qütbləşmənin – qarşıdurmanın ilkin nəticələri və perspektivlərini aydınlaşdırılması;
- Azərbaycanın MDB daxilində baş verən siyasi-hərbi inteqrasiyada və iqtisadi-humanitar əməkdaşlıqda iştiraka münasibətinin öyrənilməsi;
- AR diplomatiyasının MDB-dəki geosiyasi proseslərdə "Rusiya amili" məsələsi ilə bağlı mövqeyinin dəyərləndirilməsi;
- dövlətimizin artıq həll edilmiş "Dağlıq Qarabağ problemi"nin və postsovet məkanındakı digər etnosiyasi münaqişələrin həlli ilə əlaqədar siyasətinin tədqiq edilməsi;
- ölkəmizin ABŞ və Aİ-nin MDB siyasətinə dair mövqeyinin təhlil olunması;
- xalqımızın və ordumuzun İkinci Qarabağ müharibəsindəki taleyüklü zəfərinin MDB daxilində geosiyasi proseslərdə yaratdığı yeni vəziyyətin elmi-siyasi baxımdan qiymətləndirilməsi.

**Tədqiqat metodları.** Dissertasiya tədqiqatı ayrı-ayrı problemlərin bu kimi konkret üsullardan istifadə olunması əsasında aparılmışdır:

a) tarixi-mənəvi və habelə məntiqi-tənqidi dəyərləndirmə metodları ilə araşdırılan məsələlər: SSRİ-nin süqutu prosesi və onun

geosiyasi nəticələri; postsovet və MDB məkanlarının formalaşmasını şərtləndirən amillər; Azərbaycanın MDB məkanına inteqrasiyası və s.;

b) rasional-obyektiv yanaşma üsulu ilə tədqiq olunan problemlər: MDB daxilindəki geosiyasi proseslərdə "Rusiya amili", MDB, KTMT, GUAM və Aİİ-nin gələcəyinə dair baxışlar; postsovet məkanındakı etnosiyasi münaqişələrin nizamlanmasının səbəbləri; AR-in məkandaxili geosiyasi proseslərə təsir imkanları;

c) sistemli yanaşma və müqayisəli təhlil metodları ilə öyrənilən məqamlar: MDB-də inteqrasiya və qütbləşmə prosesləri arasında qarşıdurma; Azərbaycan dövlətinin ABŞ-la Aİİ-nin MDB siyasətinə baxışı.

d) nəzəri ümumiləşdirmə üsulu ilə görülən işlər: fəsillərdə və paraqraflarda, həmçinin dissertasiyanın "Nəticə"sində aparılan qruplaşdırmalar və sistemləşdirmələr.

**Müdafiəyə çıxarılan əsas müddəalar:**

1. Birlik – inteqrasiya və qütbləşmə proseslərinin qarşıdurma, toqquşma məkanıdır.
2. MDB daxilindəki geosiyasi proseslərdə "Rusiya amili" potensial reallıq və gücdür.
3. RF-in "yaxın xaric rusları" siyasəti postsovet məkanına (AR-ə) ciddi və böyük təhlükədir.
4. KTMT ilə Aİİ – Azərbaycanın milli təhlükəsizliyinə və inkişafına töhvə vermir.
5. Azərbaycan Respublikası – postsovet geosiyasi məkanında vacib və önəmli aktordur.
6. Azərbaycanın İkinci Qarabağ müharibəsindəki zəfəri-uğuru MDB daxilindəki proseslərdə köklü dəyişikliklərə qüvvətli təkandır.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi aşağıdakılardan ibarətdir:

• MDB-Rusiyanın postsovet məkanında öz nüfuz dairəsini saxlamaq siyasətinin "əsəri" və ifadə formasıdır kimi qənaətimiz əsaslandırılmışdır;

• MDB məkanında inteqrasiya və qütbləşmə proseslərinin (meyllərinin) qarşıdurmasının nəticələri aydınlaşdırılmışdır;

• Birlikdaxili geosiyasi proseslərdə hazırda tək real dominant güc sayılan "Rusiya faktoru"nun mahiyyəti-potensialı və problemləri-perspektivləri elmi baxımdan dəyərləndirilmişdir;

• Rusiyanın MDB ölkələrindəki "yeni rus diasporası" siyasətinin Azərbaycana və Birliyin digər üzvlərinə yaratdığı problemlər və təhlükə səciyyələndirilmişdir;

• Azərbaycanın MDB-yə dair balanslı siyasətinin hədəfləri, xüsusiyyətləri, çətinlikləri və siyasi-diplomatik mənfəətləri tədqiq edilmişdir;

• Azərbaycan diplomatiyasının MDB-də qütbləşməyə dair səlis mövqeyinin: KTMT ilə Aİİ-də iştirakın perspektivsizliyi və GUAM-da fəaliyyətinin isə qənaətləri öyrənilmişdir;

• Keçmiş "Dağlıq Qarabağ problemi"nin dinc yolla həlinin mümkünsüzlüyü reallığı və təhlükəsi ilə qarşılaşan Azərbaycanın münaqişəni hərbi yolla nizamlamaq təcrübəsi dəyərləndirilmişdir;

• tədqiqatın nəticələrinə dair sistemləşdirmələr və ümumiləşdirmələr aparılmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyanın elmi və əməli önəmi bunlardan ibarətdir:

• araşdırmada gəlinən qənaətlər və çıxarılan nəticələr yeni müvafiq elmi axtarış istiqamətlərinin (mövzularının) müəyyənləşdirilməsində faydalı ola bilər. Bizcə, onlara aşağıdakıları aid etmək olar: "Postsovet məkanının imkanları və problemləri"; "Rusiya Federasiyasının "yaxın xaric rusları" siyasəti və problemi"; "Cənubi Qafqazda geosiyasi rəqabət və etnosiyasi münaqişələr"; "MDB məkanında inteqrasiya və qütbləşmə meyllərinin toqquşması: AR-in maraqları və mövqeyi"; AR-in MDBdaxili geosiyasi proseslərə təsiri: potensial və problemlər" və s.;

• tədqiqatın nəzəri – faktiki materiallarından "Azərbaycanın xarici siyasəti", "Politologiya", "Geosiyasət", "Etnosiyasi münaqişələr" fənlərinin tədrisində və onlara aid dərsliklərin yazılmasında faydalanmaq mümkündür;

• dissertasiya işi Azərbaycanın MDB siyasətinin elmi-nəzəri əsaslarının genişləndirilməsi, hüquqi bazanın möhkəmləndirilməsi və respublikamızın əlaqədar hakimiyyət strukturlarının praktiki fəaliyyəti üçün də əhəmiyyətlidir.

**Aprobasiyası və tətbiqi.** Dissertasiyanın əsas məzmunu müəllifin nəşr edilən elmi əsərlərində yetərincə ifadə olunmuşdur: 8 elmi məqalə çapdan çıxmışdır; tədqiqatın nəticələri ilə bağlı respublika və beynəlxalq səviyyəli elmi konfranslarda çıxışlar edilmişdir. Araşdırmanın nəticələri (qənaət və tövsiyələr) elmi-pedaqoji və siyasi-diplomatik fəaliyyətdə nəzərə alına və faydalı ola bilər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Dövlət Universitetinin "Diplomatiya və müasir inteqrasiya prosesləri" kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, yeddi paraqraf, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiyanın giriş hissəsi 16 səhifə – 28284 işarə, I fəsil 31 səhifə – 59601 işarə, II fəsil 28 səhifə – 52315 işarə, III fəsil 40 səhifə – 75557 işarə, nəticə 6 səhifə – 12130 işarədir. Dissertasiyanın ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla – 227887 işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **"Giriş"** hissəsində mövzunun aktuallığı və elmi yeniliyi əsaslandırılmış, onun öyrənilmə dərəcəsindən və istifadə olunmuş mənbələrdən bəhs olunmuş, elmi araşdırmanın məqsəd və vəzifələri, nəzəri və metodoloji əsasları, nəzəri və praktik əhəmiyyəti müəyyən edilmiş və sonda işin ümumi strukturu göstərilmişdir.

Dissertasiyanın **"Postsovet məkanında geosiyasi proseslər: mahiyyəti və mövcud vəziyyəti"** adlanan **I fəsli** iki paraqrafdan ibarətdir. Bu fəsildə adından da məlum olduğu kimi, post sovet məkanında cərəyan edən geosiyasi proseslər təhlil edilir.

***"SSRİ-nin dağılmasının geosiyasi nəticələri: politoloji təhlil"*** adlanan birinci paraqrafda SSRİ-nin dağılmasının səbəbləri və geostrateji nəticələri öz əksini tapmışdır.

XX əsrin sonlarında dünyanın iki fövqəldövlətindən birinin, yəni Sovet Sosialist Respublikaları İttifaqının dağılması təkcə Yalta-Potsdam sisteminin süqutu demək deyildi. Bu, eyni zamanda, dünya siyasətində yeni geosiyasi vəziyyətin yaranması kimi başa düşülür və qəbul olunurdu. SSRİ-nin dağılması ilə bağlı siyasi-elmi mübahisələr aradan 1/3 əsrə yaxın zaman keçməsinə baxmayaraq əsla səngimir və müasir tədqiqatçılar tərəfindən olduqca ziddiyyətli şəkildə əksqütblü mövqelərdən qiymətləndirilir. Çoxsaylı tədqiqatların aparılmasına, dissertasiyaların və monoqrafiyaların yazılmasına, diskussiyaların keçirilməsinə baxmayaraq Sovet İttifaqının tənəzzülü, dağılması və geosiyasi nəticələri hələ uzun müddət dünya elmi-siyasi fikrinin[5] və ciddi önəmli kütləvi informasiya vasitələrinin müzakirə obyekti olaraq qalacaqdır.

Sovetlər birliyinin süqutunda daxili siyasətdəki uğursuzluqlarla yanaşı, xarici siyasətdəki səhvlər də kifayət qədər mənfi rol oynamışdır. Sovet hökumətinin Əfqanıstandakı məğlubiyyəti SSRİ-nin beynəlxalq nüfuzunu sarsıtmaqla yanaşı onun iqtisadi həyatına da ağır zərbə vurdu. Çünki müharibənin hər günü SSRİ-yə 18 mln sovet manatına başa gəlirdi, bu isə o dövrkü qiymətlərlə 35 mln dollardan çox idi[6]. Politoloqların "son tutaşma" adlandırdıqları Əfqanıstan hadisələrinə ABŞ-dan tutmuş İsrailə qədər xeyli dövlət qarışmışdı.

Müasir politoloji fikir SSRİ-nin dağılmasında "Soyuq müharibə"nin əhəmiyyətini xüsusi olaraq vurğulayır. XX əsrin 70-ci illərində SSRİ əslində ABŞ-la strateji paritetə nail olmuşdu. Amma ABŞ-da R.Reyqanın prezidentliyinin 1-ci müddətində (1980-1984) bu bərabərlik ABŞ-ın xeyrinə olaraq dəyişdi. Belə ki, Qərb politoloqlarından P.Şveynerə görə, "Sovet İttifaqı öz-özünə iflasa uğramadı, onu çökdürən Polşa və Əfqanıstandakı uğursuzluqlar, artmaqda olan sürətlə silahlanma yarışında müvəffəqiyyətsizlik, enerji daşıyıcıları ixracının ucuzlaşması nəticəsində sabit valyutada on milyonlarla dollar itkisi, yeni texnologiyalardan istifadənin

---

[5] Лундестад, Г. Крушение Советского Союза // Восток, Запад, Север, Юг. Основые направления международной политики. 1945-1996. – Москва. – 2002. с. 279-283; Внешняя политика и дипломатия Российской Федерации. Учебник / Пред. ред. совета А.Н.Панов. – Москва: Восток-Запад, – 2010. – с. 49-52.

[6] Россия и последние войны XX века (1989-2000). К истории падения сверхдержавы / – Москва: Вече, – 2002. – с. 376

məhdudlaşdırılması ilə üzləşmə, dünya kommunist hərəkatının maddi və mənəvi ağırlıqlarını öz çiyinlərində daşıma və s. ilə oldu”[7].

İkinci paraqraf ***“Postsvet məkanında geosiyasi proseslərə Rusiya amilinin təsiri və səciyyəvi xüsusiyyətləri”*** adlanır. Bu paraqraf post sovet məkanında cərəyan edən proseslərdə Rusiyanın təsiri regionlar üzrə təhlil edilir.

XX yüzilliyin sonlarında dünya nizamında baş verən geosiyasi dəyişikliklər beynəlxalq supergüclərdən olan SSRİ-nin dağılması nəticəsində yaranmışdı; cahanda xaosu gücləndirməklə beynəlxalq əlaqələrin yeni mərhələsinin başlanğıcı olmuşdu; habelə postsovet məkanında çoxşaxəli münasibətlərin əsasını qoymuşdu. Nəticədə bir vaxtlar vahid dövlətin hissələri hesab olunan respublikalar arasında münasibətlərin yeni formaları üzə çıxmışdı. Geosiyasi tədqiqatlarda postsovet məkanı dövlətləri dedikdə onların aşağıdakı beş qrupu nəzərdə tutulur:

- Rusiya;
- Baltikyanı dövlətlər: Estoniya, Latviya və Litva;
- Şərqi Avropa ölkələri: Ukrayna, Belarus və Moldova;
- Cənubi Qafqaz respublikaları: Azərbaycan, Gürcüstan, Ermənistan;
- Mərkəzi Asiya dövlətləri: Qazaxıstan, Qırğızıstan, Tacikistan, Özbəkistan, Türkmənistan[8].

Yaranmış yeni beynəlxalq şəraitə baxmayaraq Rusiyanın postsovet respublikaları ilə münasibətləri heç də bərabərhüquqlu əlaqələr səviyyəsində deyildi. Bunun da çoxsaylı səbəbləri mövcud idi. Əslində Rusiya postsovet məkanına yenə də özününkü kimi baxır və yeni respublikaları müxtəlif yollarla özünə bağlamağa çalışırdı.

Rusiya Federasiyası – SSR-in dağılmasından sonra beynəlxalq aləmdə Sovetlər ittifaqının varisi kimi tanınmasına baxmayaraq – postsovet məkanında öz təsirinin itirilməsi ilə barışmır. Habelə həmin məkanı güclü-asılı dövlətlər variantında özünə tabe etmək siyasəti yeritməkdədir. Bunu 2008-ci ilin avqustunda baş verən

[7] Исаков, В. Расчлененка. Кто и как развалил Советский Союз: Хроника. Документы / В.Исаков. – Москва: Закон и право. – 1998. – с. 146

[8] Останков, В.И. Геополитические последствия распада СССР и национальные интересы России // Новое время, – 1993. № 6, – с. 23-25

“Beşgünlük” Rusiya-Gürcüstan müharibəsi də, bu gün davam etməkdə olan Rusiya-Ukrayna müharibəsi də əyani şəkildə sübut etdi. Tədqiqat prosesində topladığımız faktların və materialların elmi-politoloji təhlili belə bir reallığı təsdiqləyir: görünür,

Bu paraqrafın başlıca məqamları və nəticələri aşağıdakılardan ibarətdir:

a) postsovet dövlətləri arasındakı münasibətlərdə və MDB daxilindəki geosiyasi proseslərdə “Rusiya amili”nin reallığı danılmazdır;

b) Rusiyanın postsovet məkanı dövlətlərinin bir qrupu (qismi) ilə münasibətləri onların digər hissəsi ilə olan qarşılıqlı əlaqələrindən bu kimi cəhətlərdən seçilir:

- fərqli geostrateji məqsədlər;
- müxtəlif müstəvili (şəraitli) əməkdaşlıq;
- eyni (oxşar) olmayan problemlər və nəticələr;
- MDB-də qütbləşməyə rəvac və s.;

c) Rusiya postsovet məkanında (MDB-də) habelə “yaxın xaric rusları” və ya “yeni rus diaporası” kimi “problemi”ni vaxtaşırı qabardır. Başqa sözlə, Rusiyanın “Yaxın xaric” diplomatiyası “yeni rus diasporası”nın hüquqlarını “müdafiə” adı altında postsovet məkanı dövlətlərinin siyasətinə fərqli məzmunlu, sistemli və ardıcıl çoxşaxəli müdaxilələri nəzərdə tutur (belə hallar hətta daha aqressiv formalarda xeyli çoxalmaqdadır).

ç) bu kontekstə də Rusiyanın çoxəsrlik kəsərli silahından, yəni Sovet İttifaqını da çökdürən həlledici amillərin birindən, yəni fərqli və səciyyəli etnik münaqişələrin: törədilməsi – qızışdırılması – “dondurulması” – dirçəldilməsi – alovlandırılması – “konservləşdirilməsi” .... tsiklindən (taktikasından) yetərincə faydalanılır (bu siyasət indi də davam etdirilməkdədir).

**“Azərbaycan Respublikasının MDB məkanı geosiyasi proseslərdə iştirakının elmi-nəzəri və siyasi aspektləri”** adlanan **II fəsil** iki paraqrafdan ibarətdir. Bu fəsildə Azərbaycanın MDB üzvü olan ölkələrlə əməkdaşlığının əhəmiyyəti və Cənubi Qafqazda geosiyasi proseslər çoxsaylı elmi əsərlərə istinad edilməklə tədqiqat süzgəcindən keçirilmişdir.

Birinci paraqraf ***"MDB çərçivəsində əməkdaşlığın əhəmiyyəti və nəticələri"*** adlanır. Burada Azərbaycanın MDB çərçivəsində əməkdaşlığının tarixi, əhəmiyyəti, nəticələri öz əksini tapmışdır.

Azərbaycan Respublikası müstəqilliyin ilk illərində MDB-nin üzvü olan dövlətlərin əksəriyyəti ilə ikitərəfli əlaqələrin qurulmasi siyasətinə üstünlük verilməsi xəttini yeridirdi. Buna görə də o, MDB üzvlüyünə qoşulmaqdan imtina etmişdi. Digər yandan da, AR-in nümayəndələri Birliyin 1992-ci ilin oktyabrında keçirilən Bişkek görüşündə və digər tədbirlərində müşahidəçi statusu ilə təmsil olunmuşdular. Məhz həmin siyasətin nəticəsi idi ki, tərkibində Rusiya hərbi hissələrinin də olduğu Ermənistan ordusu Azərbaycana qarşı elan olunmamış müharibəyə və təcavüzə başlamışdılar. Nəticədə respublikamızın ərazisinin 20%-i işğal olunmuş, Xocalı faciəsi və digər soyqırım hadisələri törədilmişdi. Rusiyanın Cənubi Qafqaz geosiyasətinin təhlil edən D.Malışeva heç də təsadüfi olmayaraq bunları qeyd edirdi: 1991-1993-cü illərdə (!) gürcü-abxaz və Qarabağ münaqişələrindəki bütün tərəflər rus silahı və əsgərinin hesabına müharibə aparırdılar; bu isə həmin münaqişələrin ədalətli həllinə imkan vermədi[9]. Fikrimizcə, çünki bunu Rusiya istəmirdi. Respublikamızın çox gərgin vəziyyətində 1993-cü il sentyabrın 24-də Azərbaycanın MDB-yə qatılması haqqında müvafiq sənədlər imzalandı və Milli Məclis tərəfindən təsdiq edildi[10]. Belə bir siyasi-diplomatik gediş AR ilə əlaqədar geosiyasi proseslərdə yeni reallıqlar yaratdı.

Azərbaycan Respublikası dövlət müstəqilliyi haqqında Konstitusiya Aktının qəbulundan dərhal sonra dünya siyasət meydanına geosiyasi oyunçu kimi daxil ola bilmədi. Fikrimizcə, 1991-1993-cü illərdə Azərbaycan prezidentləri olmuş A.Mütəllibovla Ə.Elçibəyin dövrlərində respublikamızın xarici siyasətinin ilk konturları müəyyənləşdirilməyə başlamışdı. "Azərbaycan geosiyasəti" Ümummilli lider H.Əliyev tərəfindən isə bitkin mahiyyət və məzmunlu diplomatiya səviyyəsinə qaldırıldı.

---

[9] Quliyeva, G.M. Azərbaycan yeni geosiyasi münasibətlər sistemində / G.M.Quliyeva. – Bakı: Elm, – 2011. – s. 92-93

[10] Musa, İ. Azərbaycanın xarici siyasəti. III hissə / İ.Musa. – Bakı: Bakı Universiteti nəşriyyatı, – 2011. – s. 83

Azərbaycan Respublikası bu məkanın bütün üzvləri, xüsusilə də, Rusiya ilə sıx ikitərəfli əlaqələrə malikdir. Habelə o, MDB-nin mövcudluğunun ilk onilliyi ərzində Rusiyanın siyasi iddialarını kommersiya maraqlarına çevirməklə rəsmi Moskvanın mövqeyində ciddi pozitiv dəyişikliklərə müvəffəq olmuşdur. Birliyin göstəriciləri dünyanın digər regionlarınkından ciddi şəkildə geridə qalır. ABŞ, Qərbi Avropa dövlətləri, Yaponiya, Çin və Türkiyə Birlik ölkələrinin bazarından Rusiyanı çıxışdırıb çıxartmağa başlamışlar.[11] Əməli cəhətdən yalnız MDB çərçivəsində hərbi-siyasi strukturların təşkili Rusiyaya postsovet məkanında öz geostrateji məqsədlərini bu və ya digər dərəcədə həyata keçirmək imkanı verir. Rusiyanın geostrategiyası və geosiyasətinin bir sıra tədqiqatçıları vaxtilə qeyd edirdilər ki, MDB üçün Avropa inteqrasiyası modeli səciyyəvidir; çünki o, ümumi xarici və hərbi siyasətin işlənib hazırlanmasını, möhkəmləndirilməsini və həyata keçirilməsini nəzərdə tutur. MDB eyni zamanda postsovet məkanında gedən qütbləşmə proseslərinin dərinləşməsində Rusiyanın əlində ən mühüm alətlərdən biridir[12].

***“Cənubi Qafqazda geosiyasi rəqabət və Rusiyanın regional geosiyasi proseslərə təsiri Azərbaycanın maraqlarında”*** adlanan ikinci paraqraf regionda geosiyasi proseslər Rusiyanın təsiri və Azərbaycanın maraqları kontekstində tədqiq edilir.

XX əsrin 90-cı illərinin əvvəllərində “soyuq müharibənin” başa çatması ilə sosializm sisteminin dağılması paralel surətdə getdi ki, elə həmin dövrdən də postsosialist məkanı geosiyasi rəqabət meydanına çevrildi. Vaxtilə Rusiyanın nəzarətində olan regionların ələ keçirilməsi uğrunda Qərb dövlətlərinin apardığı mübarizə tədricən geosiyasi konfiqurasiyanı dəyişdi. Ələ keçirilməsi uğrunda gərgin mübarizənin getdiyi regionlardan biri kimi Cənubi Qafqazın bu müstəvidə yeri xüsusidir. Regiona münasibətdə çoxsaylı aktorların fərqli strateji xətlərinin meydana gəlməsi geosiyasi oyunçular arasında rəqabəti şərtləndirən başlıca amilə çevrilmişdi. Məhz bu dövrdən etibarən Xəzər regionunda Türkiyənin, Qərb

---

[11] Россия между Западом и Востоком: мосты в будущее / – Москва: Вече, – 2003. – с 82-85

[12] Проблема приоритетов во внешней политике России / Сборник статей. – Москва, – 1998. № 2, – с.16-22

dövlətlərinin, xüsusilə ABŞ-ın olduqca fəallaşması Rusiya və İranın güclü qısqanc münasibəti və rəqabəti ilə qarşılaşmışdı.

Cənubi Qafqaz ölkələri arasında siyasi və iqtisadi əməkdaşlığın genişləndirilməsinin vacibliyindən və bunun regional təhlükəsizlikdən ötrü əhəmiyyətindən bəhs edən amerikalı siyasətşünas P.Qoblun fikrincə, uğurlu neft kəməri infrastrukturu sahəsində bu, üç respublika arasında qarşılıqlı anlaşma yaranarsa, onlar eyni gəlir götürərlər; qarşılıqlı iddiaları aradan qaldırarlar; bununla da, Qafqazın Rusiyadan asılılığı aradan çıxar[13]. Lakin belə yanaşmanın reallaşması, fikrimizcə, təkcə region dövlətlərindən asılı deyil. Bunun üçün, ilk növbədə, ABŞ, Rusiya, Türkiyə və İranın mövqelərinin yaxınlaşması tələb olunur, belə hal mövcud olmadığı üçün regionun üç dövlətinin hər biri fərqli xarici siyasət xətti yeridir.

Xeyli sayda siyasi-diplomatik sənədin və yaxın keçmişin çoxlu tarixi əhəmiyyətli hadisələrinin də təsdiqlədiyi kimi AR-in "balanlaşdırılmış diplomatiyası"sı sayəsində və nəticəsində:

a) əvvəllər mövcud olan ölkədaxili siyasi təlatümlər aradan qalxmışdır;

b) şaxələndirmə xəttilə enerji ehtiyatlarının xaricə problemlərsiz nəqlinə müvəffəq olunmuşdur;

c) beynəlxalq enerji (neft və qaz) korporasiyaları arasında-karbohidrogen ehtiyatlarının istehsalı, emalı, nəqli ilə bağlı uzlaşma saxlanılmış və anlaşmalara varılmışdır;

d) Xəzərin hüquqi statusu barədə Konvensiya 2018-ci ildə ərsəyə gətirilmişdir;

e) ən başlıcası da, AR 44 günlük Vətən (İkinci Qarabağ) müharibəsi ilə Ermənistanın ölkəmizə hərbi təcavüzünə və torpaqlarımızın onun tərəfindən işğalına son qoyulmasıdır.

**"Azərbaycan Respublikasının geosiyasi fəaliyyət prioritetləri"** adlanan üçüncü fəsli Azərbaycanın xarici siyasətinin MDB məkanı ilə bağlı müxtəlif istiqamətlərinə həsr edilmişdir. Bu fəsildə, post sovet məkanında cərəyan edən geosiyasi proseslərlə bağlı Azərbaycanın maraqları, mövqeyi işıqlandırılmışdır.

[13] Hüseynova, H. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində / H.Hüseynova. – Bakı: Hərbi nəşriyyat, – 1998. – s. 80-81

Birinci paraqraf ***“Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətində MDB məkaninda qütbləşmə proseslərinə münasibət”*** adlanır. Bu paraqrafda əsasən MDB məkanında geosiyasi proseslərin xarakterindən və Azərbaycanın bu proseslərə yanaşmasından bəhs edilir.

Üçüncü fəslin 1-ci paraqrafındakı araşdırmalarımızın nəticələri bunlardır:

a) SSRİ-nin xələfi və hüquqi varisi sayılan Rusiya onun süqutuna lap yaxın bir vaxtda çox da yubatmadan MDB-ni yaratdı. Amma müəyyən səbəblərə və amillərə görə, Kreml ona tam arxayın ola və güvənə bilmədi. Çünki o zamankı dünya siyasətinin, beynəlxalq münasibətlərin və postsovet məkanındakı geosiyasi reallıqların fonunda Birliyin gələcəyi olduqca şübhəli görünürdü və ona inamsızılıq özünü açıqca büruzə verirdi. Bütün bunları vaxtında nəzərə alan Rusiya diplomatiyası:

• Post SSRİ məkanındakı geosiyasi və geoiqtisadi qütbləşmələrdə şaxələndirmə xəttinə üstünlük verdi;

• bunun və bəzi amillərin sayəsində KTMT və, əsasən, (postsovet – MDB: siyasi-hərbi səviyyəli KTMT və, əsasən, iqtisadi-ticarət yönümlü Aİİ və Gİ) arxitekturasını quraşdıra bildi (hərçənd ki, postsovet respublikalarını hamılıqla – yekdilliklə qurumlara “üzv etmək” mümkün olmadı);

• belə bir iyerarxik qurumlaşdırma sistemi ilə həm də bu təşkilatların hər hansı birindən faydalanma imkanı olmadıqda digər(lər)indən yararlanmadan ötrü “ehtiyat variant planı”nı hazırladı;

b) Rusiyanın bu geosiyasi-geoiqtisadi “çətirlər”i arasında KTMT ilə əlaqədar məsələlər daha çox elmi maraq doğurur və müzakirələrə səbəb olur. Bir çox elmi-siyasi/əməli və fərqli dəyərləndirmələrin başlıca tezislərinə görə KTMT:

• “Asiya NATO-su”, yaxud “Rus NATO-su” və ya “Putin NATO-su”dur;

• ABŞ, Çin və Aİ təki “qlobal oyunçuları” postsovet “meydanı”na buraxmamaqdan ötrü düşünülən hərbi-siyasi alyansdır;

• iqtisadi potensial, hərbi qüdrət, insan resursları və s. baxımından NATO ilə müqayisəyə gəlməyən və formal, yalnız müəyyən görüntü yaradan bir qurumdur;

• yalnız Kremlə lazım olan olmadığı hallarda öz üzvləri arasında qarşıdurmalara yol verməyən və iştirakçı dövlətlərdə vaxtaşırı sosial və etnik zəminlərdə ortaya çıxan problemlərə müdaxilə etməyən və onlarla məsafə saxlayan bir "MDB törəməsi"dir. (Sözgəlişi, bu kimi hallara çoxlu nümunələr göstərmək olar. Məsələn, Rusiyanın 2021-ci ilin mayında Tacikistanla Qırğızıstan arasında yaşanan "Su savaşı"ndakı "susqun hidro siyasəti" və s. Bununla bağlı hətta qırğızıstanlı deputatların bir qrupu ölkə parlamentinə müraciət etdilər. Müraciətdə təşkilat fəaliyyətsizlikdə və tərəfkeşlikdə təqsirləndirildi. Həmin sənəddə habelə Qırğızıstanın qurumdan çıxması istənildi);

• Ukrayna ilə Moldovanın NATO və Aİ-yə üzvlüyü yolunu "sonsuz dəhliz"ə çevirən gücdür;

• çərçivəsi və müstəvisində "doğulduğu" MDB və həmçinin onun digər "övladları" sayılan Avrasiya İqtisadi və Gömrük ittifaqları kimi perspektivsiz, gələcəksiz, müvəqqəti yığnaq və sığınacaqdır;

c) AR-KTMT münasibətləri, dövlətimizin təşkilatla bağlı maraqları və mövqeyi daha dərin və genişəhatəli elmi tədqiqatların mövzuları olmalıdır. Bizim araşdırmalardan çıxan nəticələrə görə Azərbaycan Respublikası:

• KTMT ilə münasibətlərini - düzgün və haqlı olaraq - özünün "balanslaşdırma diplomatiyası" əsasında qurmuşdur. (Başqa sözlə, onu nə çox yaxına buraxmamaq, nə də çox uzaq tutmamaq xətti seçilmişdir);

• bir müddət müşahidəçi statusu ilə təşkilatın fəaliyyətinə qatılmaqla ölkəmizə elə onun üzv – "patronu" Rusiya və iştirakçısı Ermənistan tərəfindən törədilən taleyüklü təhlükələri dəf edə bilmişdir;

• qurumla əlaqələrində bir problemi, yəni Ermənistanın ölkəmizə hərbi təcavüzünə və torpaqlarımızın onun tərəfindən işğalına son qoyulması məsələlərini daima diqqət mərkəzində saxlamış və önə çəkmişdir. (Bununla bağlı da, ilk növbədə,

Ermənistanın – tarixi zəfərlər qazandığımız – məşhur Aprel savaşları və İkinci Qarabağ müharibəsi dönəmlərində KTMT-ni Azərbaycanla toqquşdurmaq səyləri diplomatiyamız tərəfindən uğurla zərərsizləşdirildi və s.).

***"Avrasiya İqtisadi İttifaqının (Aİİ) hədəfləri və Azərbaycanın maraqları geosiyasi reallıqlar müstəvisində"*** adlanan ikinci paraqrafda İttifaqın hədəfləri Azərbaycanın maraqları və mövcud geosiyasi reallıqlar kontekstində ortaya qoyulmuşdur.

Azərbaycan Respublikasının xarici siyasət fəaliyyətinin postsovet məkanı ölkələri (Baltikyanı dövlətlər istisna olmaqla) istiqamətinin son otuz illik dövrünün hadisələri və proseslərinin təhlili belə qənaətimizə əsaslar verir: problemə kompleks yanaşdıqda respublikamızın regional müstəvidə, yəni MDB məkanında və habelə beynəlxalq səviyyədə – müasir dünya siyasətində yetərli uğurlar qazandığı açıq görünür. MDB məkanının mühüm üzvü kimi Rusiya bu çoğrafiyada "oyun qaydaları"nı müəyyənləşdirən başlıca aktorlardan biridir. Onun reallaşdırdığı qütbləşmə siyasətinin gedişində formalaşan Avrasiya İqtisadi İttifaqının sərhədləri genişlənməkdədir.

Bu məkanda gedən "inteqrasiya prosesləri", gömrük sərhədlərinin şəffaflaşması, qarşılıqlı fayda əsasında gömrük rüsumları və ticarət tariflərinin tətbiq olunması, iqtisadiyyatın şaxələndirilməasi Bakı şəhərinin Avrasiya nəqliyyat mərkəzinə çevrilməsi, postsovet ərazisindən kənarda olan dövlətlərin İttifaqın fəaliyyətinə qoşulması kimi amillər, öz növbəsində, Azərbaycan Respublikasının da ikitərəfli və çoxtərəfli əlaqələrinin genişlənməsinə səmərəli perspektivlər açmışdır.

Üçüncü fəslin 2-ci paraqrafındakı elmi təhlillərimizlə aşağıdakı müddəalar və dəyərləndirmələrlə xülasə verilə bilər:

• Rusiya postsovet məkanında "becərdiyi və yetişdirdiyi" qütbləşmə proseslərində şaxələndirmə siyasətinə üstünlük verir və ondan faydalanır;

• bu, qütbləşmə diversifikasiyası özünü postsovet məkanındakı geosiyasi (MDB), geohərbi (KTMT) və geoiqtisadi (Gİ, Aİİ) kimi proseslərdə – təşkilatlarda ifadə və təcəssüm etdirir. (Yeri gəlmişkən, belə hallar – məqamlar bir çox cəhətlərdən Rusiyanın SSRİ

yaratmaqdan ötrü 1920-1922-ci illərdə gördüyü çoxşaxəli işləri, tədbirləri xatırladır. Burada V.Putinin 2021-ci ilin mayında səsləndirdiyi səciyyəli belə bir fikir də diqqətçəkicidir: "Sovetlər ittifaqının tarixi Rusiyadan başqa bir şey deyildi... geopolitik nöqteyi-nəzərdən SSRİ birmənalı şəkildə tarixi Rusiya idi".[14] Ancaq, bizcə də, çağdaş beynəlxalq şərait və onun inkişaf meylləri "Rusiyapərvər" "SSRİsevərlər"in ümidlərinin özünü doğruldacağına əsaslar vermir və yer saxlamır);

• Qərbin siyasi-hərbi-diplomatik baxışlar üçbucağında bir "neoSSRİ" perspektivi olaraq düşünülən AİI özünün bəzi təzadları ilə diqqəti çəkir. (Belə ki, vaxtilə N.Nazarbəyovun ümumbəşəri, xoşməramlı amallara xidmət niyyətilə irəli sürdüyü "Avrasiyaçılıq" ideya-platforması V.Putin tərəfindən Rusiyanın modern imperiyapərəstlilik geostrategiyasına transformasiya etdirilməkdədir);

• "Ermənistansız AİI"-ni həm də tarixdə ilk slavyan-türk birliyi olaraq dəyərləndirilən elmi-siyasi baxışlar mövcuddur;

• Qazaxıstanla Belarusun "Ermənistan İttifaqa yalnız beynəlxalq tanınan sərhədləri çərçivəsində və Azərbaycanın xüsusi fikri nəzərə alınmaqla qəbul edilə bilər" təki ədalətli mövqeyinə Rusiya tərəfindən əsla məhəl qoyulmaması da AİI ilə bağlı pünhan, şübhəli və düşündürücü mətləblərdən xəbər verir. (Az öncə də yazdığımız kimi, Ermənistan Kremlin birmənalı himayəsi ilə çox tezliklə, yəni İttifaqın təşkilindən təxminən beş ay sonra ona "üzv oldu". Sözgəlişi, Ermənistanın hansı insan resursları və nə kimi iqtisadi potensiala AİI-nin fəaliyyətində iştirak etməsi də çoxlu suallar doğuran məsələdir);

• Kremlin "AİI layihəsi" (planı") ilə bağlı məqsədi və hədəflərinə aid xeyli mübhəm məqamlar Azərbaycan diplomatiyasının düşünülmüş davranışını (ehtiyatlı, çevik, tarazlı və s.) şərtləndirmişdir. (Yəni AR AİI-yə üzv dövlətlərlə ikitərəfli iqtisadi-ticarət əlaqələrini inkişaf etdirməklə İttifaqa rəsmi olaraq qoşulmur).

---

[14] Xaliddinbəyli, E. Putin yenə hədələdi: Rusiya müstəqil ölkələri öz ərazisi hesab edir: [Elektron resurs] / URL: müsavat.com/news/putin_yene_oz_erazisi_hedeledi_801950.html.

III fəslin son paraqrafı ***“GUAM-Demokratiya və İqtisadi İnkişaf Təşkilatı postsovet məkanının güc mərkəzlərindən biri kimi”*** adlanır və burada GUAM-ın yaradılması post sovet məkanında cərəyan edən qütbləşmə prosesinin nəticəsi olması ilə əlaqədar müddəalar öz əksini tapmışdır.

Yaradılmasında və fəaliyyətində AR-in də yaxından iştirak etdiyi postsovet məkanı qurumlarından biri də GUAM-dır. Onun təşkili postsovet məkanında XX əsrin 90-cı illərinin əvvəllərindən etibarən cərəyan etməkdə olan proseslərin qanunauyğun nəticəsi və dövrümüzün reallığıdır. GUAM-ın yaradılması bilavasitə Rusiyanın Şərqi Avropa və Cənubi Qafqaz regionlarda mövcudluğunu qoruyub saxlamaq cəhdlərinə Azərbaycan, Gürcüstan, Moldova və Ukrayna respublikalarının cavab reaksiyası kimi nəzərdən keçirilir. Hələ 1990-cı il noyabrın 19-da ATƏM-in Paris zirvə görüşündə “Avropada Adi Silahlı Qüvvələr” (AASQ) haqqında NATO ilə Varşava Müqaviləsi Təşkilatı (VMT) arasında müqavilə imzalanmışdı. Həmin müqaviləyə əsasən, Avropada adi silahların qarşılıqlı ixtisarı yolu ilə NATO ilə VMT arasında paritet yaradılmalı və bununla da tərəflərin bir-birinə gözlənilməz hücum təhlükəsi aradan qaldırılmalı idi[15].

Üçüncü fəslin 3-cü paraqrafındakı təhlillər və ümumiləşdirmələrdən irəli gələn və bəzi tədqiqatlarda da özünə yer alan qənaətlər sırasında bunlar diqqətçəkicidir:

**1.** Rusiyanın müasir **neoimperialist** təfəkkürü və siyasətinin konkret ifadəsi və əyani təzahürü olan “Cinah sazişləri” layihəsi postsovet-MDB məkanında ciddi, çoxyönlü təlatümlər yaratdı. Qərbin siyasi-diplomatik tövsiyəsilə “Cinahlar paketi”ni imzalayan “Dördlər” (Gürcüstan, Ukrayna, Azərbaycan, Moldova) tam da düzgün, haqlı olaraq və böyük uzaqgörənlik göstərərək əsla arxayınlaşmadılar.

Müxtəlif səviyyəli qarşılıqlı silsilə rəsmi səfərlər – müzakirələr və işgüzar görüşlər-tədbirlər GUAM Birliyinin təşəkkülü ilə nəticələndi. (Sözgəlişi, bu kimi fəaliyyətlərdə o zamankı Azərbaycan

---

[15] Hüseynova, H. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində /H.Hüseynova. – Bakı: Hərbi nəşriyyat, – 1998. – s. 98

və Gürcüstan liderləri – H.Əliyevlə E.Şevernadze – xüsusilə fərqləndilər).

**2.** GUAM-a dair çoxlu, təzadlı beynəlxalq elmi-siyasi yanaşma və rəylər mövcuddur. Onların da sırasında Qərbdə və Rusiyada yayılan bir sıra baxışlar və dəyərləndirmələr diqqəti daha çox cəlb edir. Belə ki,

**a)** rəsmi Vaşinqton-Brussel-Vyana-Strasburqa görə GUAM:

• Avrasiyada faydalı əməkdaşlıq platformasıdır;

• "Avroqaf evi"nə yol və körpüdür;

• məhəlli təbii inteqrasiya modelidir;

• ömürlük "Rusiya Qafqazı" olmaqdan qurtulma siyasətidir;

• Rusiyadan yankeçən "Böyük İpək Yolu" layihəsidir;

• Avropanın Azərbaycan (Xəzər) nefti və qazı ilə də təmin edilən enerji təhlükəsizliyi proqramıdır və s.

**b)** rəsmi Moskvaya görə isə Birlik:

• Rusiyanın Qərb (Avropa, ABŞ) və Şərq (Asiya) ilə təcridinə yönəlik bufer zonadır;

• ABŞ-ın Rusiyaya qarşı MDB-dəki plasdarmıdır;

• "ölü doğulan uşaqdır";

• İran-Rusiya-Ermənistan tərəfdaşlığına qarşı düşünülən və planlaşdırılan alternativdir.

**3.** GUAM bir təşkilat olaraq:

• dinamikliyi və çevikliyi ilə seçilir;

• modern təşkilatlanma və səmərəli strukturlaşma ilə də fərqlənir;

• müvəqqəti-yarımçıq genişlənmə (Özbəkistanın nümunəsində) dönəmini yaşamışdır;

• bir ara Rumıniya, Bolqarıstan, Türkiyə və digər respublikaların da ona üzvlüyə həvəslənmələri ilə də diqqəti çəkmişdir;

• müəyyən səbəblər üzündən addəyişməyə də məruz qalmışdır;

• fəaliyyətində zəifləmə və dirçəliş-inkişaf mərhələlərindən də keçmişdir;

• gələcəyi ilə bağlı nikbin (perspektivli) və bədbin (şübhəli) elmi-siyasi yanaşma və mövqelərə də müəyyən əsaslar vermişdir.

**Tədqiqatın "Nəticə"sində** göstərilir ki, MDB Sovetlər Birliyi dağılandan sonra postsovet məkanında yaranan reallığın nəticələrindən biridir. Uzunmüddət vahid hüquqi, siyasi, iqtisadi, sosial, mənəvi məkanda yaşamış olan xalqların və respublikaların illərlə formalaşan keçmiş əlaqələrdən tam imtina etmələri, inteqrasiya proseslərini birdən-birə dayandırmaları onlar üçün yaxşı heç nə vəd etmirdi. Postsovet məkanı ölkələrinin əmək və istehsal resursları, maliyyə-bazar münasibətləri, makro və mikroiqtisadi mexanizmləri vahid bir sistem tərkibində elə qarışmışdı ki, bunu birdən-birə dağıtmaq ciddi fəsadlara gətirib çıxara bilərdi. Bununla belə, o da faktdır ki, Rusiya ilk vaxtlardan bu qurumdan istifadə edərək MDB ölkələri üzərində əvvəlki dominant mövqeyini və onların daxili, xarici siyasətlərinə müdaxilə imkanlarını saxlamağa çalışıb. Məhz Rusiyanın bu siyasəti Birlik daxilində qütbləşmə proseslərinin baş verməsində əsas müəyyənedici rol oynayıb.

Azərbaycan, bir yandan, MDB-yə əhəmiyyətli, lakin həyati olmayan regional təşkilat kimi yanaşır. Digər tərəfdən də, öz prioritetlərini bu təşkilat çərçivəsində də qoruyur, dövlət müstəqilliyini məhdudlaşdıra biləcək proseslərdən kənar qalır və şərait tələb etdikdə, müəyyən məqamlarda konkret mövqe nümayiş etdirir. Azərbaycan Respublikası MDB çərçivəsindəki inteqrasiya proseslərində fəal iştirakla yanaşı müxtəlifyönlü birliklərdən (hərbi, təhlükəsizlik, sərhəd, gömrük və s.) mümkün qədər kənarda qalmağa çalışır. O həm də postsovet məkanındakı qütbləşmədə öz mövqeyini qoruyub saxlayır. Bu niyyətlə də KTMT, Avrasiya İqtisadi İttifaqı, Gömrük İttifaqı kimi qurumlara üzv olmaqdan imtina edir. Həmçinin GUAM-ın təsisçi dövləti kimi çıxış edir.

**Dissertasiyanın əsas məzmunu müəllifin aşağıdakı əsərlərində dərc edilmişdir:**


1. Rusiyanın post sovet məkanının Şərqi Avropa ölkələri siyasətinin səciyyəvi xüsusiyyətləri // – Bakı: İqtisadi və Siyasi elmlər jurnalı, – 2018. №3, – s.93-103.
2. Cənubi Qafqazda geosiyasi rəqabət və Rusiyanın regional geosiyasi proseslərə təsiri // – Bakı: Tarix və onun problemləri, – 2019. – s. 210-216.

3. Sovet İttifaqının dağılması, səbəbləri və geosiyasi nəticələri: politoloji təhlil // Bakı: Tarix və onun problemləri, – 2019. – s. 150-156.
4. Создание и деятелность ОДКБ в призме внешней политики Азербайджанской Республики // – Україна: Регіональни СТУДИИ (Науковий Збирник), – 2021. – s. 77-84.
5. Postsovet məkanında iqtisadi inteqrasiya Azərbaycan və Avroasiya İqtisadi İttifaqı // – Bakı: Geostrategiya, Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal, – 2023. №5 (77), – s. 27-30.
6. Azərbaycan-MDB əməkdaşlığı – geosiyasi prioritetlərdən biri kimi: elmi-politoloji təhlil // XVII Beynəlxalq Elmi Araşdırmalar Konfransı, – Bakı: – 7 mart, – 2024, – s. 13-16.
7. GUAM – Müstəqil Dövlətlər Birliyinin alternativi kimi: elmi-politoloji təhlil // XVI Respublika Elmi Qaynaqlar Konfransı, – Bakı: – 12 mart, – 2024, – s. 51-54.
8. Müstəqil Dövlətlər Birliyinin yaranması: səbəbləri, geosiyasi nəticələri: elmi-politoloji təhlil // III Respublika Elmi Konfransı, – Bakı: – 12 yanvar, – 2024, – s. 15-18.
9. The Commonwealth of independent states: a pillar in Azerbaijan’s foreign policy strategy // LX International Multidisciplinary Conference, – USA: Shawnee, – 2024, – pp.42-45.

Dissertasiyanın müdafiəsi __04__ __iyun__ 2026-cı il tarixində saat _13.30_ Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası nəzdində fəaliyyət göstərən FD 2.30 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəhəri, Lermontov küçəsi 74.

Dissertasiya ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat _01_ __may__ 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 20.04.2026

Kağızın formatı: 60x84 1/16

Həcm: 41589 işarə

Tiraj: 100